**Dövlət büdcəsinə əlavə və dəyişikliklər ediləcək**

Azərbaycan Prezidenti 2012-ci ilin dövlət büdcəsinə əlavə və dəyişikliklərlə bağlı qanun layihəsini Milli Məclisin mğzakirəsinə təqdim etmişdir
Cari ilin dövlət büdcəsində öz əksini tapan müddəalar uğurla icra olunur. 2012-ci ilin birinci rübündə dövlət büdcəsinə 3 milyard 487,8 milyon manat vəsait daxil olmuş, büdcədən müxtəlif sosial və iqtisadi tədbirlərin maliyyələşdirilməsinə 2 milyard 843,2 milyon manat vəsait xərclənmişdir.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, büdcə gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 26% və ya 719,4 milyon manat, büdcə xərcləri isə 36,2% və ya 755,8 milyon manat artmışdır. Nəticədə dövlət büdcəsinin profisiti ümumi daxili məhsulun 5,2%-i səviyyəsinə çatmışdır. Buna baxmayaraq, hər il oldugu kimi, 2012-ci ildə də dövlət büdcəsinin gəlir və xərclərinə yenidən baxılması zərurəti yaranmışdır. Azərbaycan Respublikasının 2012-ci ilin dövlət büdcəsinə ediləcək əlavə və dəyişikliklərin əsas mahiyyəti ölkə başçısının tapşırığına uyğun olaraq, ölkənin şimal-qərb bölgəsində baş vermiş zəlzələ nəticəsində Zaqatala, Qax, Balakən və Şəki rayonlarının əhalisinə və sosial-iqtisadi infrastrukturlarına dəymiş ziyanın, 2010-cu ildə Kür və Araz çaylarının Sabirabad və Salyan rayonlarının ərazisində yaratdığı irimiqyaslı fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı işlərin başa çatdırılması üçün əlavə maliyyə vəsaitinin ayrılması ilə baglıdır. Bundan başqa, cari ildə ölkənin bəzi rayon və şəhərlərinin ərazisində normadan artıq yağan leysan yağışlarının, sel və daşqınların törətdiyi fəsadların (Saatlı, İmişli, Neftçala, Hacıqabul, Şirvan, Zərdab, Kürdəmir, Salyan, Sabirabad, Şamaxı) aradan qaldırılması, ölkədə ehtimal olunan təbii fəlakət və fövqəladə halların qarşısının alınması və qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə xüsusi təyinatlı maşın və avadanlıqların alınması, Bakı şəhərinin bir sıra ərazilərində müəyyən edilmiş sürüşmə zonalarında müvafiq tədbirlərin görülməsi üçün əlavə maliyyə təminatının yaradılması qanun layihəsində öz əksini tapmışdır.
Eyni zamanda, Bakı şəhərinin ətraf ərazilərində və onun kəndlərində qrunt sularının səviyyəsinin qalxması ilə bağlı tədbirlərin görülməsi, ekoloji və sanitar durumun yaxşılaşdırılması, habelə 2012-ci ilin ötən dövrü ərzində ölkənin hərbi quruculuğu və təhlükəsizliyi sahəsində qəbul edilmiş fərman və tapşırıqların icrası və dövlət büdcəsində əvvəlcə nəzərdə tutulmayan tədbirlərin maliyyələşdirilməsi üçün əlavə vəsait cəlb edilməsi məsələləri dövlət büdcəsinə əlavə və dəyişikliklərdə öz təsdiqini tapacaq.
Qeyd olunan məsələlərlə bağlı Azərbaycan Respublikasının 2012-ci il üçün dövlət büdcəsinin gəlirləri və xərcləri 600 milyon manat artırılacaq. Dövlət büdcəsinə əlavə daxilolmaların iqtisadiyyatın neft və qeyri-neft sektorundan vergi daxilolmaları hesabına təmin edilməsi nəzərdə tutulmuşdur. Xüsusilə qeyri-neft sektorundan büdcə daxilolmalarının daha çox olacağı proqnozlaşdırılır. Ümumilikdə, qanun layihəsində büdcə gəlirlərinin 17 milyard 038 milyon manata, xərclərinin isə 17 milyard 672 milyon manata çatdırılması planlaşdırılır.
Azərbaycan Respublikasının Hesablama Palatasının verdiyi rəydə bildirilir ki, 2012-ci ilin ötən dövrü ərzində ölkə iqtisadiyyatını xarakterizə edən makroiqtisadi göstəricilər və ona təsir edən amillər cari ilin dövlət büdcəsinin gəlir və xərc parametrlərinin dürüstləşdirilməsini zəruri etmişdir. Buna görə də Hesablama Palatası 2012-ci ilin dövlət büdcəsinə əlavə və dəyişikliklərin Milli Məclis tərəfindən müzakirəyə çıxarılmasına müsbət rəy vermişdir.

Rəşad SADIQOV